**AZƏRBAYCAN RESPUBLİKASI**
**DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

# SƏRƏNCAMI

№ 22 «24» 04. 2018-ci il

**"Daşkəsən rayon İcra Hakimiyyəti adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin siyahısı"nın təsdiq edilməsi haqqında**

"İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanının 5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci bəndinə uyğun olaraq **qərara alıram:**

1. "Daşkəsən Rayon İcra Hakimiyyəti adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslər aşağıdakı kimi təsdiq edilsin.

**Əhəd Abıyev – Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı**

**Cavanşir Qocayev - Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri**

**Namiq Süleymanov - Başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri**

**Elmar Şıxəliyev - Hüquq şöbəsinin müdiri**

**Elman Məmmədov - Memarlıq və tikinti şöbəsinin müdiri**

**Elxan Hüseynzadə - Daşkəsən RİHB Aparatı yanında Yetkinlik Yaşına Çatmayanların işləri və Hüquqlarının Müdafiəsi üzrə komissiyanın məsul katibi**

2. Daşkəsən rayon İcra Hakimiyyətinin Başçısı Aparatının İnformasiya təminatı və təhlil sektorunun müdiri Vüqar Məmmədova tapşırılsın ki, İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin siyahısını Daşkəsən Rayon İcra Hakimiyyətinin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.
3. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.
4. Sərəncam imzalandığı gündən qüvvədədir.

**BAŞÇI: ƏHƏD ABIYEV**

DÜZDÜR:

SƏNƏDLƏRLƏ VƏ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ ŞÖBƏSİNİN MÜDİRİ: SAHİB ƏHMƏDOV